**Leyla Fəxrəddin qızı Əhmədova**

**UOT: 378.33: 001.895; JEL: I20; O30; O32.**

# Azərbaycanda elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovativ biznes proseslərinin tətbiqi istiqamətləri

***Xülasə***

*Tədqiqatın məqsədi – Azərbaycanda elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik biznes proseslərinin tətbiqi istiqamətlərinin tədqiq edilməsidir. Bu məqsədlə elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovativ biznes proseslərinin rolu açıqlanmışdır. Elmi-tədqiqat işlərinin səmərəli təşkilində yanaşmalar baxılmış və müasir dövrün tələblərinə uyğun olaraq innovatik biznes proseslərindən istifadənin səmərəliliyi əsaslandırılmışdır. İntellektual resursların biznes dövriyyəsinə cəlb olunması problemləri araşdırılmış və innovativ biznes proseslərinin xüsusiyyətləri qiymətləndirilmişdir. Azərbaycanda elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi vəziyyəti baxılmış və bu sahədə çəkilən xərclər təhlil olunmuşdur. Elmi-tədqiqat xidmətlərinin genişləndirilməsi istiqamətində innovatik biznes proseslərinin tətbiqi imkanları baxılmışdır. Tədqiqatın metodologiyası – araşdırılan problemlər üzrə müxtəlif tədqiqatçıların elmi əsərlərində verilmiş yanaşmalara və metodoloji üslublara müraciət edilmiş, eyni zamanda bir sıra iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, müqayisəli təhlil və ümumiləşdirmə kimi metodlardan daha çox istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqatdan əldə olunmuş elmi-iqtisadi nəticələrdən, həmçinin əməli təkliflərdən Azərbaycanda elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik biznes proseslərinin tətbiqi işlərinin daha səmərəli təşkil olunmasında istifadəsidir. Tədqiqatın nəticələri – elmi-tədqiqat xidmətlərinin daha geniş həcmdə təşkili və səmərəliliyinin təmin olunması, bu proseslərdə innovatik biznes mexanizmlərinin rolundan fəal istifadə edilməsi üzrə kompleks və sistemli tədbirlərin həyata keçirilməsinə elmi-praktiki zəminin hazırlanmasıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə baxılan problemlər və verilən araşdırma materialları əsasən orijinaldır və bu da ilk növbədə elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik biznes proseslərinin rolunun tədqiqinin yeni tədqiqat istiqaməti olması ilə də bağlıdır. Başlıca elmi yenlik isə qlobal təsirin bütün sahələrdə intensivliyinin artdığı bir dövrdə elmi-tədqiqat xidmətlərinin genişləndirilməsi və bunlardan səmərəli istifadə olunması ilə bağlı konseptual fikirlərin formalaşdırılması, bu proseslərdə innovatik biznesin rolunun açıqlanmasıdır. Qloballaşma kontekstində elm və yüksək texnologiyaların həlledici rolundan çıxış etməklə, elmi-tədqiqat xidmətlərinin şaxələndirilməsində innovatikbiznes proseslərinin tətbiqi istiqamətləri üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözləri:*** *elmi-tədqiqat xidmətləri, innovasiyalar, innovatik biznes prosesləri, elmi-tədqiqat xidmətlərinin genişləndirilməsi, elmi-tədqiqat işlərinin səmərəlilik məsələləri, innovatik inkişafın əsas prinsipləri, tədqiqat və işləmələr, elm və texnologiyalar.*

## Giriş

İnnovativ iqtisadiyyatda müasir iqtisadi reallıq istehsalın təşkilati, texniki və texnoloji komponentlərini daim təkmilləşdirən müəssisələrin rəqabətli mübarizəsində qalibi müəyyən edir. Bu, ilk növbədə, hazırkı dövr üçün aktual olan və istehsal olunan məhsulların dəyişdirilməsinə və modernləşdirilməsinə yönəlmiş innovativ biznes proseslərinin tətbiqi ilə asanlaşdırılır. Rəqabət şəraitində bir çox müəssisələr texnologiyanın təkmilləşdirilməsini

*©Leyla Fəxrəddin qızı Əhmədova Azərbaycan Kooperasiya Universiteti, doktorant.*
*E-mail: leyla.ehmedova.aku@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

təmin etmədən, istehsalın intellektual komponentini yeniləmədən, yalnız köhnə əsas fondlara əsaslanaraq əhəmiyyətli nəticələr əldə etməyə çalışırlar. Bəzi hallarda müəssisələr strukturunda konstruktor bürolarının olmasına baxmayaraq, keyfiyyət, qiymət və digər parametrlər baxımından rəqabət üstünlükləri ilə təmin edən innovativ məhsulların hazırlanmasına diqqət yetirmirlər. Bu şəraitdə həmin müəssisələr innovativ fəaliyyətdə fəal iştirak etməli və onların prioritet maraq obyekti əlavə dəyər əldə etmək deyil, elmi tədqiqatların nəticələrinin cəlb olunduğu istehsal prosesinin özü olmalıdır. Belə olan halda onların fəaliyyəti yüksək məhsuldarlıqla müşayiət olunar. Müasir dövrdə müxtəlif müəssisələrin əmək məhsuldarlığına bir çox amillər, o cümlədən, maddi-texniki amillər xüsusi təsir göstərir. Onlara istehsalın texniki səviyyəsini yüksəltməyə imkan verən hər şey, o cümlədən, innovativ biznes proseslərinin tətbiqi daxildir. Bu halda məhsuldarlığın artması elmi-texniki tərəqqinin nailiyyətlərindən, innovativ biznes proseslərindən istifadə etməklə, xammaldan, materialdan, enerji mənbələrindən istifadənin səmərəliliyinin artırılması, istehsalın mexanikləşdirilməsi səviyyəsinin yüksəldilməsi və hərtərəfli modernləşdirilməsi hesabına əldə edilir. Bununla belə, əmək məhsuldarlığının yüksəldilməsində əsas fondların müasirləşdirilməsinin intensivləşdirilməsi ilə yanaşı, onların keyfiyyətcə texniki cəhətdən yeniləşdirilməsi də əsas rol oynamalıdır. Bütün bunlarla yanaşı, məhsuldarlığın artırılmasına elmi-tədqiqat xidmətlərinin inkişafı və genişləndirilməsi də əhəmiyyətli təsir göstərir [5, s.57]. İnnovativ biznes proseslərini çox vaxt yeni texnologiyaya uyğun olaraq istehsalın təşkilini və nəticələrini dəyərli nəticələrə çevirən davamlı, məqsədyönlü qarşılıqlı əlaqəli proseslər toplusu kimi başa düşə bilərik. Eyni zamanda, innovativ biznes prosesi həm də müəssisə üçün yeni dəyərə malik olan nəticələrə nail olmağa yönəlmiş ardıcıl, məqsədyönlü və tənzimlənən əməliyyatlar və ya tapşırıqlar sistemi kimi xarakterizə edə bilərik. Bu təriflər innovativ biznes proseslərinin tətbiqinin elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində nə qədər mühüm əhəmiyyətli rola malik olduğunu göstərir. Elmi-tədqiqat xidmətlərinin genişləndirilməsi üçün, ilk növbədə, onların xüsusiyyətlərini müəyyənləşdirək.

**Elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik biznes proseslərinin gücləndirilməsi problemlərinin tədqiqi**

Hər bir xidmət kimi, elmi-tədqiqat sahəsində də xidmətin özünəməxsus xüsusiyyətləri vardır. Xidmətlərin marketinqinin müddəalarına əsasən, bütün xidmətlərə bu və ya digər şəkildə xas olmalı olan, onları mallardan fərqləndirən aşağıdakı əsas xüsusiyyətlər fərqləndirilir. Belə əlamətlər qeyri-maddilik, ayrılmazlıq, qeyri-sabitlik və davamlı olmamaqdır. Elmi-tədqiqat sahəsində göstərilən xidmətləri başqa bir nöqteyi-nəzərdən xarakterizə etmək də olar. Məsələn, alqı-satqı proseslərində iştirak meyarına görə elmi-tədqiqat təşkilatları tərəfindən göstərilən xidmətlər həm bazar, həm də qeyri-bazar xarakterlidir [6, s.21]. İntellektual fəaliyyətin nəticələrini əldə etməyin mühüm yollarından biri ixtisaslaşdırılmış elmi-tədqiqat təşkilatları tərəfindən göstərilən xidmətlərdir. İxtisaslaşmış elmi-tədqiqat təşkilatlarının xidmətləri bilik tutumlu xidmətlər və innovasiyalar bazarında mərkəzi yer tutur. İnnovasiyanın xidmət komponenti müxtəlif fəaliyyət sahələrində getdikcə daha çox əhəmiyyət kəsb edir. Yerli elmi-tədqiqat təşkilatlarının məcmusunda mühüm yeri elmi-tədqiqat sahəsinin akademik sektoruna aiddir. Akademik təşkilatların konkret missiyası, məqsədləri və fəaliyyət xüsusiyyətləri vardır. Belə təşkilatların əsas missiyası müxtəlif elmi-tədqiqat sahələri üzrə fundamental və tətbiqi elmi tədqiqatlar aparmaq, o cümlədən təbiət, insan və ümumilikdə kainatın əsasları haqqında yeni biliklər əldə etməkdir. Göstərilənlərlə yanaşı, onların fəaliyyət məqsədinə alqı-satqı obyekti olan və gəlir gətirən fəaliyyət kimi təşkilatın balansında əks olunan elmi-tədqiqat



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmətlərinin göstərilməsi daxildir. Daha ətraflı şəkildə, Azərbaycanda elmi-tədqiqat təşkilatlarının məqsədləri, xüsusiyyətləri və prioritetləri şəkil 1-də təqdim olunur.

**Şəkil 1.**

**Elmi-tədqiqat təşkilatlarının missiyası, məqsədləri və prioritetləri**

**Prioritetlər**
- Prioritet sahələr üzrə fundamental tədqiqatların inkişafı;
- Təşkilatların (istehlakçıların) sifarişləri ilə tətbiqi tədqiqatların və təcrübə-konstruktor işlərinin işlənib hazırlanması;
- Ən qabaqcıl texnologiyalardan, müasir metodlardan və proqram təminatından istifadə etməklə avadanlıq parkının yenilənməsi;
- Sifarişin yerinə yetirilməsi zamanı müştərinin tələblərinin ödənilməsi və müştəri üçün riskin azaldılması, məhsulun həyat dövrünün mərhələlərində keyfiyyətinin təmin edilməsi üzrə tədbirlərin səmərəliliyinin artırılması və müəyyən edilmiş tələblərdən kənara çıxmaların qarşısının alınması;
- Kadrların inkişafı üçün şəraitin yaradılması;
- Birgə icraçılar və müştərilərlə qarşılıqlı faydalı münasibətlərin təmin edilməsi.
- Ayrılmış maliyyə, maddi və digər resurslardan səmərəli istifadə edilməsi.

**Elmi-tədqiqat təşkilatları**

**Missiya**
Elmin müxtəlif sahələrində fundamental və tətbiqi elmi-tədqiqatların aparılması, kainatın əsasları, təbiət, insan haqqında biliklərə töhfə olan yeni elmi nəticələr əldə etmək.

**Məqsədlər**
Ölkənin strateji prioriteti olan yüksək keyfiyyətli elmi məhsulların istehsalı, yüksək rəqabət qabiliyyətinin təmin edilməsi, elmi-tədqiqat işlərində lider mövqe tutması, eləcə də mövcud normativ sənədlərin tələblərinə ciddi riayət etməklə davamlı etimadın yaradılması.

**Xüsusiyyətləri**
- Yeni biliklərin əldə edilməsinə yönəlmiş eksperimental və ya nəzəri işlərin və xidmətlərin həyata keçirilməsi;
- Ən mühüm dövlət qərarlarının elmi təminatı və ekspertizasının həyata keçirilməsi;
- Ölkənin elmi, texnoloji və sosial inkişafının yeni istiqamətlərinin müəyyən edilməsi;
- Qlobal və milli səviyyədə böyük əhəmiyyət kəsb edən iri həcmdə fundamental və tətbiqi tədqiqatların aparılması.



Elmi-tədqiqat xidmətləri sektorunda innovativ biznes proseslərinin tətbiqi elmi-tədqiqat işlərinin strukturuna və məzmununa birbaşa və dolayısı ilə təsir edən bir neçə texnoloji paradiqma üzərində cəmlənmişdir. İnnovativ biznes proseslərinin tətbiqi istehlak bazarında yeni məhsulun meydana çıxması təsərrüfat subyektlərinin istehlakçılara elmi-tədqiqat xidmətlərinin göstərilməsi ilə bağlı münasibətlərinə təsir göstərir. Sənaye sahələrində, təşkilatlarda və iqtisadiyyatda geniş spektrli innovatik biznes proseslərinin tətbiq edilməsi aşağıdakı fəaliyyətlər kimi xarakterizə edilə bilər:

- yeni məhsul və xidmətlərin istehsalı;
- yeni texnologiyaların istifadəsi və ya inkişafı;
- yeni resurs mənbələrindən istifadə;
- istehsalın, əməyin və idarəetmənin təşkilinin yeni forma və üsullarının tətbiqi;
- yeni bazarların mənimsənilməsi və ya inkişafı.

Beləliklə, innovatik biznes proseslərinin tətbiqi məhsulun həyat dövrünün bütün mərhələlərinin həyata keçirilməsi üçün təşkilati və idarəetmə dəstəyi kimi çıxış edir. Elmi-tədqiqat xidmətləri sektorunda innovativ biznes proseslərinin xüsusiyyətlərinin düzgün qiymətləndirilməməsi onların səmərəliliyinin və effektivliyinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur ki, bu da çox vaxt təşkilatın rəqabət qabiliyyətinə təsir göstərir. Mühüm fəaliyyət sahəsi kimi innovativ biznes prosesləri aşağıdakı xüsusiyyətlərə malikdir:

- İnnovativ biznes proseslərinin həyata keçirilməsi zamanı idarəetmə obyektində dəyişiklik baş verir: məhsulun, əşyaların, əmək alətlərinin, texnologiyanın spesifikliyi dəyişir.

- İnnovativ biznes proseslərinin idarə edilməsi, təşkilatın ənənəvi idarəçiliyindən fərqli olaraq, idarəetmə sisteminin bütün elementlərinin yüksək qeyri-sabitliyi və dəyişkənliyi və yüksək risk ilə xarakterizə olunur.
- İnnovativ biznes proseslərinin tətbiqi çox vaxt xarici iqtisadi amillərlə motivasiya olunur. Eyni zamanda, tez-tez innovativ biznes proseslərinin tətbiqi imicə və ya sosial istiqamətə yönəldilir.
- İnnovativ biznes proseslərinin tətbiqi təkcə təşkilati-texniki aspektləri deyil, həm də fəaliyyətin əlaqələndirilməsini nəzərdə tutur.

Elmi-tədqiqat xidmətləri sektorunda müəssisələrin innovativ fəaliyyəti innovasiya strategiyası ilə ayrılmaz şəkildə bağlıdır ki, bu da müəssisələrin daxili xüsusiyyətlərini və xarici mühiti nəzərə almaqla uzunmüddətli dövr üçün ümumi məqsədlər və onlara nail olmaq yollarının məcmusu kimi başa düşülür. Texnoloji innovativ biznes prosesləri əsasında iqtisadiyyatın innovativ tərəqqisinin və modernləşdirilməsinin təmin edilməsi, o cümlədən elmi tədqiqatların nəticələrinin və elmi innovasiyaların iqtisadiyyatın müxtəlif sahələrində tətbiqi dövrümüzün aktual problemlərindəndir. Bu gün ölkə iqtisadiyyatında elmin, elmi və innovativ fəaliyyətin payının artırılması, elmi-tədqiqat nəticələrinin, innovativ məhsulların kommersiyalaşdırılması, ixtiraların, patentlərin, nou-haunun biliyə, ideyaların kommersiya məhsuluna çevrilməsi mühüm əhəmiyyət kəsb edir [1, s.53]. Qloballaşan dünyada cəmiyyətin artım tendensiyaları, xüsusilə inkişaf etmiş ölkələrdə iqtisadi sıçrayışların əsasları öyrənildikdə məlum olur ki, bu inkişafın səbəblərinin başında elmi innovasiyaların tətbiqi dayanır. Təbii sərvətlərin, ticarətin, kənd təsərrüfatının və digər sahələrin verdiyi faydaları elmi innovasiyaların iqtisadi faydaları ilə müqayisə oluna bilməz. Eksperimental tədqiqatlar insanların həyat və sağlamlığının qorunması, yeni istehsal proseslərinin, materialların, məhsulların, cihazların, xidmətlərin yaradılması və onların təkmilləşdirilməsi məqsədi ilə aparılan elmi tədqiqatlar və ya praktiki təcrübə nəticəsində əldə edilmiş biliklərə əsaslanan tədqiqatdır. Fundamental tədqiqatlar təbiətin, cəmiyyətin və insanların inkişaf qanunauyğunluqları haqqında bilik əldə etməyə yönəlmiş nəzəri və eksperimental fəaliyyətdir. Məsələn, iqtisadi qərarların qəbulu vəziyyətlərində insanın davranış nümunələrinin öyrənilməsi fundamental kimi təsnif edilə bilər. Tətbiqi tədqiqat insanın praktik fəaliyyəti sahəsində yaranan tətbiqi problemlərin həlli üçün biliklərin əldə edilməsinə və istifadəsinə yönəlmiş fəaliyyətdir. Məsələn, tətbiqi tədqiqata vergi uçotu metodologiyasının yaradılması üzrə işlər daxildir.

Tətbiqi tədqiqatlar yeni məhsulların yaradılmasına, müəssisədə artıq istehsal olunan məhsulların təkmilləşdirilməsinə yönəldilmişdir. Onlar həmçinin yeni və ya təkmilləşdirilmiş məhsulların istehsalının əsas üsullarının müəyyən edilməsi, məhsulun keyfiyyətinə nəzarət vasitələrinin işlənib hazırlanması və tətbiqi, innovativ biznes proseslərinin avtomatlaşdırılması və mexanikləşdirilməsinin inkişafı ilə bağlı bu və digər işlərin həyata keçirilməsini əhatə edir. Tətbiqi tədqiqatların nəticələri texniki sənədlər, prototiplər, modellər və digər nəticələr şəklində ifadə olunur ki, bu da sonradan müəssisələrin təcrübəsinə yeni elmi ideyaların daxil edilməsi üçün əsas olur. Beləliklə, tətbiqi tədqiqatlar zamanı istifadə üçün ən real olan və eksperimental layihələndirmə işlərində daha da inkişaf etdiriləcək elmi nəticələr kompleksi formalaşır. Bu işlərin yerinə yetirilməsi gedişində tətbiqi tədqiqat prosesində müəyyən edilmiş imkanlar əsasında texniki problemlər həll edilir. Təkmilləşdirmə işləri texniki və işçi layihələrin formalaşdırılmasına, yeni məhsulların prototiplərinin istehsalına yönəldilmişdir, yəni inkişaf işləri əvvəllər tamamlanmış tədqiqat işlərinin nəticələrinin materiallaşdırılması ilə əlaqələndirilir. Bu işlər istənilən sənaye müəssisəsinin fəaliyyətinin tərkib hissəsidir. Onlar elmi-tədqiqat işlərinin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yekun mərhələsi kimi çıxış edir və sırf elmi fəaliyyətdən sənaye istehsalı şəraitinə keçidi xarakterizə edir. Tədqiqat və təcrübə-konstruktor işlərinin ayrılmaz şəkildə bağlı olduğunu nəzərə alaraq, onların bir iştirakçı tərəfindən aparılması məqsədəuyğundur [8, s.42]. Yuxarıda göstərilənlər müəssisələrin innovativ biznes proseslərinni tətbiqi əsasında elmi-tədqiqat işləri ilə həll edilməli olan əsas vəzifələr kompleksini formalaşdırmağa imkan verir:

- müxtəlif fəaliyyət sahələrində yeni biliklərin əldə edilməsi və onların təcrübədə tətbiqi üçün yeni imkanların müəyyən edilməsi;
- elmi-tədqiqat işlərinin nəticələrinin reallaşdırılmasının və potensialının nəzəri və eksperimental sınaqdan keçirilməsi;
- sənaye müəssisələrinin miqyasında innovasiyaların praktiki tətbiqi.

Bu vəzifələrin sənaye müəssisələrinin əməli fəaliyyətində həyata keçirilməsi bütün növ ehtiyatlardan istifadənin səmərəliliyinin, təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir.

**Azərbaycanda elmi-tədqiqat xidmətlərinin səmərəli təşkilində innovativ biznes proseslərinin tətbiqi məsələləri**

İnnovativ inkişafın təmin edilməsində mühüm amil elm, təhsil və iqtisadi fəaliyyət sahələrinin əlaqələrinin təkmilləşdirilməsidir. Azərbaycanda təhsil-elm-istehsal zəncirinin təkmilləşdirilməsinə müxtəlif fundamental yanaşmalar mövcuddur. Azərbaycanın mövcud kadr potensialı, maddi-texniki baza, innovasiyalara əsaslanan inkişaf imkanları nəzərə alınaraq, ölkəmizin təhsil müəssisələrinin elm mərkəzləri və elmi-tədqiqat institutları ilə inteqrasiyasına real şərait yaradılır. Bu gün inkişaf etmiş ölkələrdə universitetlər, ilk növbədə, tədqiqat mərkəzi kimi formalaşır və tədris prosesi elmi innovasiyalara əsaslanır. Beləliklə, universitetlər cəmiyyətin ehtiyac və tələblərinə cavab verən tədqiqat və təhsil mərkəzləri kimi formalaşır. Bu gün universitetlərimiz qloballaşan dünyaya inteqrasiya etmək üçün belə bir missiyanı yerinə yetirməlidir. Elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovativ biznes proseslərinin tətbiqi müasir dövrün tələbləri səviyyəsində qurulmalıdır [3, s.4]. Elmi təcrübələr vasitəsilə birbaşa və ya dolayısı ilə təsdiqlənə bilən sistemləşdirilmiş izahat və proqnozlardan ibarət olan cəmiyyət, təbiət və kainat haqqında biliklər məcmuəsi, elmi fəaliyyəti isə bu biliklərin genişləndirilməsinə yönəlmiş fəaliyyətlər kimi xarakterizə etmək olar. “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda elmi fəaliyyət məzmununa görə eksperimental, tətbiqi və fundamental kimi növlərə bölünür [4, s.13; 9]. Azərbaycanda elmi-tədqiqat xidmətləri sahəsinin ümumi çatışmazlığı onun zəif innovasiya yönümlü olmasıdır. Hazırda yüksək texnologiyalı istehsalın inkişaf səviyyəsi, müəssisələrin və bütövlükdə dövlətin innovativ inkişafı ölkənin gələcəkdə uğurlu inkişafının ən mühüm elementidir. Eyni zamanda, elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinin təşkili mühüm rol oynayır. Məhz elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinin səmərəli mexanizmləri ayrıca sənayeni inkişaf etdirməyə və şirkətlərin, regionların və dövlətin innovativ inkişaf səviyyəsini yüksəltməyə imkan verir. Dövlət inkişafının innovativ modeli elmi-tədqiqat sahəsində resurs bazasını tələb edir ki, bura da daxildir: yüksək ixtisaslı kadr potensialı, müasir maddi-texniki baza, eləcə də elmi-tədqiqat işlərinə kifayət qədər maliyyə vəsaiti [7, s.49]. Məlumdur ki, Azərbaycan ənənəvi olaraq innovativ inkişaf və iqtisadi artımın innovativ modelinə keçidin təmin edilməsi üçün zəruri olan əhəmiyyətli kadr, elmi-tədqiqat, ixtiraçılıq və texniki potensiala malikdir. Lakin Azərbaycanda elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi problemi vardır ki, bu təkcə elmi fəaliyyətlə birbaşa əlaqəli olan təşkilatların tədqiqatçıları və ya işçiləri üçün deyil, həm də istənilən digər müasir təşkilatlar üçün aktualdır. Ölkədə elmi-tədqiqatların maliyyələşdirilməsi problemlərindən biri dövlət büdcəsindən xərclərin üstünlük təşkil etməsidir. Təbii ki, bir çox ölkələrdə elmi-tədqiqat işlərinə dövlət dəstəyi mühüm yer tutur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Lakin müasir dünyada iqtisadiyyatın özəl sektoru da bu sahəyə böyük maraq göstərməlidir. Müəyyən edilmiş problemlərin həlli üçün innovativ biznes proseslərinin tətbiqi istiqamətlərini, müxtəlif maliyyələşdirmə mexanizmlərinin optimal nisbətini, habelə dövlət-özəl tərəfdaşlığından istifadə zamanı mümkün olan büdcə və büdcədənkənar maliyyələşdirmənin optimal birləşməsini tapmaq lazımdır. Azərbaycanda elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi vəziyyətini öyrənmək üçün aşağıdakı cədvəl məlumatlarından istifadə edək (cədvəl 1, cədvəl 2.)

**Cədvəl 1.**

**Azərbaycanda elmə, tədqiqat və işləmələrə çəkilən xərclər**

| Göstəricilər: | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Dövlət büdcəsindən elmə çəkilən xərclər, milyon manat** | 113,2 | 110,2 | 109,8 | 117,8 | 122,3 | 143,6 |
| **ÜDM-in həcmi, milyon manat** | 54380,0 | 60425,2 | 70337,8 | 80092,0 | 81896,2 | 72432,2 |
| **ÜDM-ə nisbətən, faizlə** | 0,21 | 0,18 | 0,16 | 0,15 | 0,15 | 0,20 |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | 17784,5 | 17751,3 | 17594,5 | 22731,6 | 24425,9 | 26416,3 |
| **Dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə** | 0,64 | 0,62 | 0,62 | 0,52 | 0,50 | 0,54 |
| **Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər, cəmi, min man.** | 123230,4 | 129289,8 | 132340,0 | 150532,1 | 171067,6 | 168940,9 |
| **ÜDM-ə nisbətən, faizlə** | 0,23 | 0,21 | 0,19 | 0,19 | 0,21 | 0,23 |

Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. https://www.stat.gov.az/



Cədvəl 1-dən məlum olur ki, dövlət büdcəsindən elmə çəkilən xərclər davamlı olaraq artmışdır. Belə ki, 2020-ci ildə bu sahəyə ayrılan xərclər 143,6 milyon manat təşkil etmişdir ki, bu da 2015-ci illə müqayisədə 26,9%, 2017-ci illə müqayisədə 30,8%, 2019-cu illə müqayisədə isə 17,4% çoxdur. Buna baxmayaraq elmə çəkilən xərclərin ÜDM-də və dövlət büdcəsi xərclərində xüsusi çəkisində qeyri-sabit artım müşahidə olunmuşdur. Belə ki, 2020-ci ildə bu istiqamətə yönəldilən xərclərin ÜDM-də xüsusi çəkisi 2015-ci ilə nisbətən, dövlət büdcəsində xüsusi çəkisi 2018 və 2019-cu illərdə artdığı hallarda, digər tədqiq olunan dövrlərdə azalmışdır. Cədvəl 2-də Azərbaycanda 2015-2020-ci illərdə tədqiqat və işləmələrə çəkilən daxili xərclər dinamikası verilmişçdir.

**Cədvəl 2.**

**Tədqiqat və işləmələrə çəkilən daxili xərclər**

| Göstəricilər: | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Tədqiqat və işləmələrə çəkilən daxili xərclər, cəmi, min man.** | 120943,6 | 124721,3 | 129871,8 | 147468,3 | 163890,4 | 162452,5 |
| **Dövlət sektorunda tədqiqat və işləmələrə çəkilən daxili xərclər, cəmi, min man.** | 104135,7 | 106343,3 | 108193,1 | 125900,6 | 134892,0 | 139115,9 |
| **ümumi daxili xərclərdə xüsusi çəkisi, faizlə** | 86,1 | 85,3 | 83,3 | 85,4 | 82,3 | 85,6 |
| **Sahibkarlıq sektoru üzrə tədqiqat və işləmələrə çəkilən daxili xərclər, cəmi, min man.** | 6 470,5 | 6758,4 | 10229,4 | 3632,1 | 6094,8 | 5478,4 |
| **ümumi daxili xərclərdə xüsusi çəkisi, faizlə** | 5,4 | 5,4 | 7,9 | 2,4 | 3,7 | 3,4 |
| **Ali təhsil sektoru üzrə tədqi-qat və işləmələrə çəkilən daxi-li xərclər, cəmi, min man.** | 10337,4 | 11619,6 | 11449,3 | 17935,6 | 22903,6 | 17858,2 |
| **ümumi daxili xərclərdə xüsusi çəkisi (%)** | 8,5 | 9,3 | 8,8 | 12,2 | 14,0 | 11,0 |

Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. https://www.stat.gov.az/

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər isə 2020-ci ildə 2019-cu ilə nisbətən 1,3% azaldığı halda digər illərə nisbətən artmışdır. Sonuncu ildə tədqiqat və işləmələrə çəkilən ümumi xərclərin 162452,5 min manatını və yaxud 96,2%-ni daxili xərclər təşkil edir. Tədqiqat və işləmələrə çəkilən daxili xərclərin 85,6%-i dövlət, 11,0%-i ali təhsil, 3,4%-i isə sahibkarlıq sektorunun payına düşür. Maliyyələşdirmə baxımından innovasiya fəaliyyəti mərkəzlərinin yaradılmasının vacibliyini də nəzərə almaq vacibdir. Qeyd edək ki, biznesin diqqətini elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə yönəltməyə açıq zərurət yaranarsa, bu funksiyanı tamamilə özəl təşkilatlara vermək mümkün deyil. Bu sahədə dövlət tənzimlənməsinin mühüm istiqaməti yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır ki, onlar olmadan elmi-tədqiqat sahəsində maliyyə və maddi resurslar mənasızlaşır. Müasir iqtisadiyyat üçün xarakterik olan qeyri-müəyyənlik şəraitində təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin artırılması yalnız innovativ biznes proseslər tətbiq etdikdə mümkün olur. Eyni zamanda, innovativ bnesiz proserslərinin tətbiqi elmi-tədqiqat işlərinin payının artması, texnoloji yeniliklərin tətbiqi və kommersiyalaşdırılması kimi başa düşülür. Müasir şəraitdə innovativ biznes proseslərinin tətbiqi elmi-tədqiqat xidmətləri sektoru üçün getdikcə daha çox əhəmiyyət kəsb edir ki, bu da onlara nəinki konkret bazarda öz mövqeyini möhkəmləndirməyə, həm də rəqabət qabiliyyətini artırmağa, bazarların şaxələndirilməsinə imkan verir. Məhz, innovativ biznes proseslərini tətbiq etməklə elmi-tədqiqat xidmətlərin təkmilləşdirilməsi və bazara yeni, müasir xidmətlərin təqdim edilməsi əsasında iqtisadiyyatın və istehlakçıların daim dəyişən tələblərinə ən yaxşı şəkildə cavab vermək olar. Universitetlər və elmi-tədqiqat institutları da innovativ biznes proseslərinin tətbiqinin mühüm iştirakçılarına çevrilməlidir. Qərbi Avropa və ABŞ-ın bir çox universitetləri texnologiyanın şirkətlərə ötürülməsində, startaplarda və innovasiyalarda fəal iştirak edirlər. Ona görə Azərbaycanda da innovativ biznes prosesləri getdikcə daha çox elmi-tədqiqat xidmətlərinə yönəldilməlidir. Aşağıdakı şəkil vasitəsilə Azərbaycanda tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sektorial bölgüsünü nəzərdən keçirək (şəkil 2).



**Şəkil 1.**

**2020-ci ildə tədqiqat və işləmələri yerinə yetirən təşkilatların bölgüsü.**




ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib. https://www.stat.gov.az/.

2020-ci ildə tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı 127 olmuşdur ki, bunun da 86-sı və yaxud 67,7%-i dövlət, 37-si və yaxud 29,1%-i ali təhsil, 4-ü və yaxud 3,2%-i sahibkarlıq sektorunun payına düşür. Sahibkarlıq sektorunun tədqiqat və işləmələrdə zəif rolunu nəzərə alaraq onları bu fəaliyyətə stimullaşdırmaq lazımdır. Elmi-tədqiqat sektorunda sahibkarlığın stimullaşdırılması innovativ biznes proseslərinin tətbiqinə böyük təkan verər. Sahibkarlıq sektorunun elmi-tədqiqatlar sahəsinə cəlb edilməsinin innovativ biznes proseslərinin tətbiqi yolu ilə stimullaşdırılması bu sahədəki xidmətlərin kəmiyyət və keyfiyyətinin artmasına gətirib çıxarar. Elmi-tədqiqatlar sahəsində xidmətlərin say və keyfiyyətinin inkişafına və uğurlu artımına, eləcə də tədqiqat və təkmilləşdirmələrdə bazar payının artmasına bu və ya digər amillər də kömək edir. Bu amillərin əsasını elmi-tədqiqat

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmətlərinin kommersiyalaşdırılması və yumşaldılması, bazar münasibətlərinin inkişafı, elmi-tədqiqat məhsullarının kəmiyyət və keyfiyyətinə ciddi uçot və nəzarət təşkil edir. Elmi-tədqiqat müəssisələrinin cari fəaliyyəti bir çox problemlərlə müşayiət olunur ki, bunlar arasında kifayət qədər büdcə maliyyələşdirilməsinin olmaması, təcrübəli elmi və elmi-texniki kadrların yaşlanması və s. aid etmək olar. Bu problemlər elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovativ biznes proseslərinin tətbiqini çətinləşdirir.

**Nəticə**

Qloballaşma kontekstində elmi-tədqiqat xidmətlərinin genişləndirilnəsində biznes proseslərinin artan rolu və bu sahəyə strateji yanaşma müasir dövrün mühüm məsələlərindən biri kimi səciyyələndirilir. Bu baxımdan yaxın onilliklərdə Azərbaycanda elm və texnologiya bazarlarının inkişafı, elmi-tədqiqat fəaliyyətinin kommersiyalaşdırılması istiqamətində bu tədbirlərin görülməsi vacibdir: milli innovasiya sistemini formalaşdırmaq və təşkili proseslərini başa çatdırmaq və bu sahədə mövcud qanunvericilik bazasını təkmilləşdirmək; ölkədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının və təşkilatlarının fəaliyyətini beynəlxalq təcrübəyə uyğunlaşdırmaq; elmi-tədqiqat müəssisələri ilə sahibkarlar və təsərrüfat subyektləri arasında əlaqələrin, habelə elmi-texniki tədqiqat xidmətlərinin strukturunun genişləndirilməsini təmin etmək [2, s.105]. Müəssisələrdə elmi-tədqiqat və innovasiyaların işlənib hazırlanmasına marağı artırmaq üçün elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması və müəssisələr tərəfindən maraqla qarşılanması üçün tədbirlər görülməli, bu sahədə biznes proseslərinin qarşılıqlı səmərəliliyinə diqqət yönəldilməlidir. İnnovativ mexanizmlərin və yeni innovasiyaların işlənib hazırlanması və onların elmi-tədqiqat laboratoriyasında və ya başqa yerlərdə tətbiqi üçün ardıcıl yanaşmaların təmin edilməlidir. Birincisi, milli səviyyədə innovasiya sisteminin formalaşması və inkişafı konsepsiyası olmalı, onun inkişaf strategiyaları müəyyən edilməlidir. İkincisi, elmi tədqiqatların nəticələrinin fəal şəkildə tətbiqi və həyata keçirilməsi üçün tədbirlər görmək lazımdır. Sonra elmi-tədqiqat xidmətlərinin formalaşdığı innovativ biznes proseslərinin zəruri təhlili və tədqiqi aparılmalı, göstəricilər sistemi müəyyən edilməli və onların qiymətləndirilməsi metodologiyası hazırlanmalıdır. Bu gün elmi-tədqiqat xidmətlərinin genişləndirilməsinə innovativ biznes proseslərini tətbiq etməklə milli təsərrüfat kompleksinin inkişaf strategiyası ilə əlaqəsini gücləndirmək lazımdır. Elmi-tədqiqat xidmətləri sahəsi təkcə istehsal olunan məhsulun istehlak-dəyər xassələrindən deyil, həm də əhalinin həyat səviyyəsi və keyfiyyətindən, sağlamlığından və iqtisadi fəallığından, sosial sahənin inkişafı sosial göstəricilərdən asılıdır. Elmi-tədqiqat xidmətləri sektorunda innovativ biznes proseslərin tətbiqinin nəticələri həm istehsal müəssisəsi daxilində, həm də xarici mühitdə dəyişikliklərə səbəb olan proqnozlaşdırıla bilən nəticə ilə əlaqələndirilməlidir: səmərəli tələbatın artması istehsal olunan məhsulların istehlak xassələrinə tələblərin artması ilə müşayiət olunur ki, bu da müəssisələri innovativ biznes prosesləri tətbiq etməklə öz nomenklaturasını genişləndirməyə və yeniləməyə, malların layihələndirilməsində müvafiq dəyişikliklər etməyə, marketinq şəbəkələrini yenidən qurmağa və şaxələndirməyə məcbur edir; innovativ biznes proseslərinin elmi-tədqiqat xidmətlərinin genişləndirilməsinə tətbiqi elmi-tədqiqat işlərinin prioritet istiqamətlərinin müəyyən edilməsi, rəqabətqabiliyyətli innovativ məhsulun yaradılması və istehsalıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1. Əliyev, Ə.Q. Elmi nəticələrin kommersiyalaşdırılması proseslərinin idarə olunması problemləri. İnformasiya cəmiyyəti problemləri, 2021, №2, s.52–69.
2. Əliyeva, L.F. Elmi-tədqiqat xidmətlərinin diversifikasiyalaşdırılmasında biznes-proseslərinin strateji əhəmiyyəti. Audit № 4, Cild 26, 2019, səh.96-108.
3. İsayev, E. Müasir innovasiyalı inkişafın təmin edilməsi: elm-təhsil-iqtisadi fəaliyyət zənciri. Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" mövzusunda respublika elmi konfransının materialları, Naxçıvan: Qeyrət nəşriyyatı, 2020, s.3.
4. Məmmədov, G. Azərbaycanda elmi tədqiqat: mövcud yanaşma və beynəlxalq təcrübə. Azərbaycan məktəbi, 2019, № 2 (687), s.11-24.
5. Гнездилова, А.Ю. Затраты на научно-исследовательские работы как фактор управления инновационной экономикой // Цифровая экономика: перспективы развития и совершенствования: сборник научных статей Международной научно-практической конференции, Курск, 23 октября 2020 года, Курск: Юго-Западный государственный университет, 2020, с. 57-61.
6. Казарина, Л.А., Батаева М.В. Услуги, оказываемые научными организациями, как особый вид рыночных услуг. Практический маркетинг №2 (264), 2019, с. 16-22
7. Киреева, Е.В. Механизмы финансирования научно-исследовательских и опытно-конструкторских работ // Россия - Азия - Африка - Латинская Америка: экономика взаимного доверия: Материалы X Евразийского экономического форума молодежи, Екатеринбург, 16–19 апреля 2019, с. 49-50.
8. Скорев, М.М., Кирищиева, И.Р., Скорев, Е.Н. Организация инновационной деятельности на предприятиях промышленного комплекса: научно-исследовательские и опытно-конструкторские работы // Наука и образование, 2017, № 7(86), с.39-43.
9. Elm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il № 271-VQ. http://www.e-qanun.az/framework/33488.
10. ARDSK-2021. https://www.stat.gov.az/.

***Лейла Фахраддин кызы Ахмедова***

***Резюме***

***Направления применения инновационных бизнес-процессов в расширении научно-исследовательских услуг в Азербайджане***

*Цель исследования – состоит из оптимального определения эффективных направлений применения инновационных бизнес-процессов в расширении научно-исследовательских услуг в Азербайджане. С этой целью раскрыта сущность и особенности организации и развития инновационных бизнес-процессов в повышении эффективности и продуктивности научно-исследовательских услуг. Исследованы важнейшие факторы создания инноваций путем перевода бизнес-процессов в русло расширения научно-исследовательских работ и получения таким образом более масштабного эффекта. Рассмотрены проблемы активного привлечения в бизнес-обороты интеллектуальных ресурсов и оценены особенности инновационных бизнес-процессов. Анализированы расходы на финансирование научно-исследовательских работ в Азербайджане. Даны возможности применения инновационных бизнес-процессов в расширении научно-исследовательских услуг. Методология исследования – в статье преимущественно использованы экономические методы, такие как анализ, синтез, сравнительный анализ и обобщение с целью более эффективной организации применения инновативных бизнес-процессов и выбора продуктивных методических способов. Практическая значимость исследования – полученные результаты и научно-практические подходы могут быть использованы в повышении эффективности инновативных процессов и, в целом, в углублении научно-технического уклада экономики страны. Результаты исследования – обоснованы и подготовлены более оптимальные подходы к усилению инновационных бизнес-процессов в расширении научно-исследовательских работ в Азербайджане. Оригинальность и научная новизна исследования – основные доводы,*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*полученные результаты и материалы статьи рассматриваются оригинально благодаря обогащению их авторскими подходами и предположениями. Обоснована важность и актуальность совершенствования действующих механизмов и сформированы концептуальные подходы по усилению роли инновационных бизнес-процессов в интенсификации научно-исследовательских работ в Азербайджане.*

***Ключевые слова:*** *научно-исследовательские услуги, инновации, инновационные бизнес-процессы, расширение научно-исследовательских услуг, вопросы эффективности научно-исследовательских услуг, основные принципы инновационного развития, исследования и разработки, наука и технологии.*

***Leyla Fakhraddin Ahmedova***

***Summary***

***Directions of application of innovative business processes in expansion of research services in Azerbaijan***

*Purpose of the research – is to determine the optimal use of innovative business processes in expanding research services in Azerbaijan. To this end, the essence and peculiarities of the organization and development of innovative business processes in increasing the efficiency and productivity of research services are revealed. The most important factors of innovation creation by means of business processes transfer to the direction of expansion of research works and thus obtaining a larger effect are investigated. Problems of active attraction of intellectual resources into business turnover are considered and features of innovative business processes are evaluated. Expenses for financing of research works in Azerbaijan are analyzed. Opportunities of application of innovative business processes in expansion of research services are given. Research methodology – the article uses economic methods, such as analysis, synthesis  and comparative analysis in order to better organize the application of innovative business processes and choose productive methodological methods. The practical importance of a research - the obtained results and scientific and practical approaches can be used to increase the efficiency of innovative processes and, in general, to deepen the scientific and technical structure of the country's economy. The results of the research - more optimal approaches to strengthening innovative business processes in expanding research in Azerbaijan are prepared. Originality and scientific novelty of the research – the main arguments, the obtained results and the materials of the article are considered original due to the enrichment of their author's approaches and assumptions. The importance and relevance of improving the existing mechanisms are justified and conceptual approaches are formed to strengthen the role of innovative business processes in intensifying research work in Azerbaijan.*

***Key words:*** *research services, innovation, innovative business processes, expansion of research services, issues of efficiency of research services, basic principles of innovative development, research and development, science and technology.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 18.10.2021.***
***Çapa qəbul olunub: 25.10.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*